**Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 25.05.2022-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.**

# AZƏRBAYCAN RESPUBLİKASI VƏKİLLƏR KOLLEGİYASININ "QADIN VƏKİLLƏR ALYANSI" HAQQINDA

# Ə S A S N A M Ə

## 1. Ümumi müddəalar.

1.1. Qadın Vəkillər Alyansı (bundan sonra – Alyans) vəkillərin müstəqilliyi prinsipinə əməl edilməklə, qadınlar və uşaqlara dair insan hüquq və azadlıqlarının və qanuni mənafelərinin müdafiəsinin gücləndirilməsi, qadınlar və uşaqlar arasında hüquqi maarifləndirmə işinin aparılması, cəmiyyətin ictimai, sosial, mədəni və hüquqi sferasında qadın vəkillərin rolunun artırılması və fəal iştirakının təmin edilməsi, hüquqşünas qadınlar arasında vəkil peşəsinin təbliği və qadın vəkillərin sayının artırılması məqsədilə ilə Azərbaycan Respublikasının Konstitusiyasının, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının (bundan sonra - Vəkillər Kollegiyası) Nizamnaməsinin tələblərinə uyğun olaraq yaradılır.

1.2. Alyansın qısaldılmış adı: "QVA".

1.3. Alyans öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyasına, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, Vəkillər Kollegiyasının Nizamnaməsinə və bu Əsasnaməyə uyğun olaraq həyata keçirir.

1.4. Alyans öz fəaliyyətini humanizm, bərabərlik, qanunçuluq və könüllülük prinsipləri əsasında qurараq yalnız ictimai maraqlar naminə yaradılır.

1.5. Alyans hüquqi şəxs deyil, o, müstəqil balansa, ayrıca əmlaka və möhürə malik olmayan Vəkillər Kollegiyasının nəzdində fəaliyyət göstərən təsisatdır . Alyansın əmlak münasibətləri Vəkillər Kollegiyasının fəaliyyəti çərçivəsində, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunu və Vəkillər Kollegiyasının Nizamnaməsi ilə müəyyən edilmiş qaydada tənzimlənir.

1.6. Alyans Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən təsdiq olunmuş blanka və rəmzlərə malik ola bilər.

1.7. Alyans Vəkillər Kollegiyası vasitəsi ilə dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərə bilər.

## 2. Alyansın fəaliyyət istiqamətləri

2.1. Alyansın məqsədləri qadınların insan hüquq və azadlıqlarının və qanuni mənafelərinin müdafiəsinə, qadınların cəmiyyətdə layiqli mövqeyinin təmin edilməsinə, qadınların və uşaqların hüquq və azadlıqlarının pozulmasının qarşısının alınmasına, vəkillikdə gender bərabərliyinin təmin olunmasına, qadınların cəmiyyətin ictimai, sosial, mədəni və hüquqi sferasında rolunun artırılmasına və fəal iştirak etməsinə kömək etməsi, vəkillik peşəsinin nüfuzunun yüksəldilməsi və hüquqşünas qadınlar arasında vəkil peşəsinin təbliğiməqsədilə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

- qadınların hüquq və azadlıqlarının, qanunla qorunan mənafelərinin müdafiəsinin gücləndirilməsi;
- Xeyriyyəçilik və humanitar fəaliyyətlərin həyata keçirilməsi məqsədilə, ehtiyacı olan və ya həssas qrupdan olan qadınların, uşaqların və ya ailələrin ödənişsiz hüquqi yardımla təmin edilməsində təşəbbüsün göstərilməsi, bununla bağlı vətəndaşlarla görüşlərin təşkil edilməsi;
- qadınların hüquqlarının pozulmasının aşkar edilməsi istiqamətində tədbirlərin görülməsi;
- qadınların sosial müdafiə və əmək hüquqlarının həyata keçirilməsində, sahibkarlıq və kommersiya fəaliyyətləri ilə bağlı məsləhət xarakterli hüquqi yardımla təmin olunmasına köməklik göstərilməsində təşəbbüskarlıq;
- qadınların hüquqlarının müdafiəsi istiqamətində Vəkillər Kollegiyasının dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları, digər hüquqi və fiziki şəxslərlə əməkdaşlığın inkişaf etdirilməsi, qadınların, ailələrin və uşaqların problemləri ilə məşğul olan yerli və beynəlxalq qurumlarla qarşılıqlı əlaqənin qurulması;
- qadın vəkillərin peşə hazırlığında və ixtisasının artırılmasında dəstək və köməklik göstərilməsi;
- qadınların, ailələrin, uşaqların maraqlarını əks etdirən məsələlərlə bağlı mühazirələrin, konfransların, dəyirmi masaların vəseminarların təşkil edilməsi;
- sosial, mədəni, elmi və peşə tədbirlərinin təşkil edilməsi;
- qadın hüquqşünaslar arasında vəkil peşəsinin təbliği istiqamətində tədbirlərin görülməsi, bununla bağlı kütləvi informasiya vasitələrində məlumatların yayılması, konfransların, dəyirmi masaların, seminarların və aksiyaların təşkil edilməsi;
- vətəndaşlar, xüsusən qadınlar, ailələr və təhsilalanlar arasında hüquqi maarifləndirilmənin və hüquq mədəniyyətinin artırılması sahəsindəişlərin görülməsi;
- Alyansın internet səhifəsinin və sosial şəbəkəhesablarının yaradılması;
- Alyansın fəaliyyətinin müxtəlif istiqamətləri üzrə təşkilat qruplarının yaradılması və fəaliyyətinin təmin edilməsi.

## 3. Alyansın tərkibi.

3.1. Alyansın üzvlərinin sayı qeyri məhdud olmaqla, Vəkillər Kollegiyasının bütün qadın üzvlərindən, Kollegiyanın Aparatının qadın hüquqşünaslarından və qadın vəkil köməkçilərindən ibarətdir.

3.2. Alyansın üzvlərinin aşağıdakı hüquq və vəzifələri vardır:

- Alyansın fəaliyyəti ilə bağlı təkliflər irəli sürmək;
- Alyansın fəaliyyətində fəal iştirak etmək və təşəbbüs irəli sürmək;
- təşkilat qruplarında iştirak etmək;
- yeni qəbul olunmuş qadın vəkillərə dəstək olmaq;

- Vəkillər Kollegiyasının və ya Alyansın maraqlarına zidd hər hansı bəyanatlar və ya Alyansın fəaliyyəti ilə bağlı təhrif olunmuş məlumatları yaymamaq;
- Alyansın fəaliyyəti ilə bağlı konfidensiallığı qorumaq;
- Alyansın maraqları çərçivəsində və naminə hərəkət etmək.

## 4. Alyansın fəaliyyətinin təşkili

4.1. Alyansın idarəetmə orqanı İdarə Heyətidir.
4.2. İdarə Heyətinin üzvlərinin sayı, tərkibi və sədri Rəyasət Heyəti tərəfindən 1 (bir) il müddətinə təyin edilir.
4.3. Alyansın İdarə Heyətinin aşağıdakı səlahiyyələri vardır:
- Alyansı təmsil edir;
- Alyansın işini təşkil və koordinasiya edir;
- Alyansın fəaliyyətinin müəyyən istiqaməti üzrə təşkilat qruplarının yaradılması ilə bağlı təşəbbüslə çıxış edir, bu Əsasnamə ilə nəzərdə tutulmuş qaydada həmin qrupları fomalaşdırır və həmin qrupların işlərinə nəzarət edir;
- Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir

4.4. Alyansın kargüzarlığı və yazışmaları Vəkillər Kollegiyası aparatı vasitəsi ilə aparılır.
4.5.Alyansın fəaliyyəti üzrə kargüzarlığın və sənədlərin saxlanması Vəkillər KollegiyasıAparatı vasitəsi ilə təmin edilir.

## 5. Təşkilat qruplarının fəaliyyəti

5.1. Alyansın səmərəli fəaliyyətinin təmin olunması üçün, bu Əsasnamə ilə nəzərdə tutulmuş qaydada, müəyyən işlərin icrası məqsəsi ilə Alyansın üzvlərindən ibarət müvəqqəti təşkilat qrupları yaradılır.
5.2.Təşkilat qrupları müvafiq istiqamətlər üzrə, tərkibdə və sayda, Alyansın İdarə Heyəti tərəfindən formalaşdırılır və təsdiq edilir.
5.3.Təşkilat qrupları, qrup rəhbəri və icraçılardan ibarətdir.
5.4.Qrupun rəhbəri işin icrası planını tərtib edir, təsdiq üçün Alyansın İdarə Heyətinə təqdim edir.Plan İdarə Heyəti tərəfindən təsdiq edildikdən sonra 1 (bir) gün ərzində qrupun icraçılarına tanışlıq üçün təqdim edilir və icra planının icrasına dərhal başlanılır.
5.5. Qrupun rəhbəri təşkilat qrupunun fəaliyyətinə nəzarət edir, işlərin koordinasıyasını təmin edir və qrupun fəaliyyəti barədə Alyansın İdarə Heyətinə hesabat verir.
5.6. Təşkilat qruplarının icraçıları işin icra planı ilə tanış olur və plana uyğun hərəkət edərək, planda nəzərdə tutulmuş müddətdə işləri icra edirlər. İcraçılar plandan kənara çıxılması zərurəti yarandığı təqdirdə bu barədə dərhal qrupun rəhbərinə məlumat verirlər.

## 6. Digər müddəalar

6.1.Bu Əsasnamə Rəyasət Heyəti tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.
6.2.Bu Əsasnaməyə dəyişikliklər yalnız Rəyasət Heyətinin qərarı ilə edilə bilər.